Ədəbiyyat qəzeti. - 2024.- 20 iyul, №27.- S.2.

# Azərbaycan Respublikasının Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri Anara

Hörmətli Anar müəllim!

Türk Mədəniyyəti və İrsi Fondu adından və şəxsən öz adımdan sədri olduğunuz Azərbaycan Yazıçılar Birliyini və onun üzvlərini 90 illik yubileyiniz münasibəti ilə səmimi-qəlbdən təbrik edir, Sizə və onlara yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Hesab edirəm ki, bu yubiley Türk ədəbiyyatı üçün müstəsna tarixi hadisədir.

Rəhbərlik etdiyim Türk Mədəniyyəti və İrsi Fondu Türk ədəbiyyatının dünyada tanıdılması istiqamətində bir sıra beynəlxalq əhəmiyyətli layihələrə imza atmışdır. Bu günə qədər Azərbaycan ədəbiyyatının tanıdılması yönündə də nəşr layihələri həyata keçirmişik. Fond "Azərbaycan qadın şairləri antologiyası" kitabını alman, ingilis, ərəb və başqa dillərdə nəşr edib, eyni zamanda "Özü vəzir, sözü şah" adlı kitab Fond tərəfindən tarixi Şuşa şəhərinin poeziya simvolu sayılan Molla Pənah Vaqif yaradıcılığına həsr olunub. Bundan başqa hal-hazırda Xurşidbanu Natəvan, Bülbül, Üzeyir Hacıbəyov haqqında "Sağalan büstlər" adlı layihəmizi həyata keçiririk. Yaxın günlərdə "Heydər Əliyev və Məhəmməd Füzuli" adlı fundamental nəşr layihəsini reallaşdırmışıq. Bir sözlə, Azərbaycan ədəbiyyatının, mədəniyyətinin təbliği Fondun fəaliyyətinin başlıca istiqamətlərindədir.

Bu gün əgər Azərbaycan dili bu qədər saf və zəngindirsə, bu məsələdə ilk növbədə biz qələm adamlarına minnətdar olmalıyıq. Unutmamalıyıq ki, Türk dili Türk xalqların ən vacib mədəni sərvətlərindəndir.

Sonda qeyd etmək istəyirəm ki, Türk Mədəniyyəti və İrsi Fondu Türk dünyasının ayrılmaz hissəsi olan Azərbaycan Yazıçılar Birliyinin Türk ədəbiyyatının inkişafına yönəlik layihələrinə dəstək verməyə hazırdır. Biz Azərbaycan Yazıçılar Birliyinin Fondun fəaliyyətini dəstəkləyən mövqeyindən dolayı təşəkkürümüzü bildiririk. İnanırıq ki, qarşılıqlı əməkdaşlıq şəraitində Türk dünyasının mədəni irsinin, ədəbiyyatının dünyada uğurla təbliğinə nail olacağıq.

Bir daha Azərbaycan Yazıçılar Birliyini 90 illik yubiley münasibəti ilə Türk Mədəniyyəti və İrsi Fondu adından təbrik edir, Türk dünyasının ədəbi sərvətini yaradan qələm adamlarına sağlam və xoşbəxt gələcək arzulayırıq.

Hörmətlə,

**Aktotı RAİMKULOVA**

*Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti*